BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 08 (17) SENTYABR (EYLÜL) 2007

# HƏDİS ELMİNDƏ "SƏHİH" ANLAYIŞI VƏ SƏHİH HƏDİSİN ŞƏRTLƏRİ

*Dr. Qoşqar Səlimli**

## GİRİŞ

Hədislə əlaqədar olaraq dillərdə dolaşan bir çox terminlər mövcuddur. Xüsusilə də son illərdə, bunları gündəlik söhbətlər arasında da istifadə edənlər vardır. Belə söhbətlər əsasən Peyğəmbərin (ə) sözü deyə bilinən hədislərin etibarlılığı, səhhəti (doğruluğu) və sağlamlığı ilə əlaqədardır. Məsələn *səhih* kəliməsi bunlardan biridir. Çox vaxt "...Belə bir hədis var. Bu səhihdirmi və ya doğrudurmu?" deyə bilən birisinə soruşulduğu müşahidə edilməkdədir.

Səhih hədisin nə kimi xüsusiyyətlərinin olması ya da özündə necə sifətləri birləşdirməsi məsələsi hər zaman İslam alimlərinin diqqət mərkəzində olmuşdur. Bu haqda müxtəif fikirlər söylənsə belə, elm adamları çox vaxt eyni fikirlər üzərində birləşmişdilər. Biz də bu məqaləmizdə, səhih hədis məsələsi haqqında az da olsa oxucularımıza məlumat vermək fikrinə gəldik.

### A. Tərifi

Səhih sözünün hədisdəki termin (istilah) mənasına girişdən əvvəl, bu sözün lüğətdəki kəlimə anlamına nəzər salmağımız bizcə vacibdir. Bu kəlimə lüğətlərdə daha çox sağlığa uyğun olan, tam, bütün, bölünməmiş, doğru, gerçək, əslinə uyğun, inanınla bilən, hüquqi cəhətdən məqbul və bununla bərabər digər bir çox mənalara da gəlməkdədir.[1]

Səhih hədis Hədis Üsulu alimləri tərəfindən, ədalət və zabt (güclü bir hafizəyə malik olma) sahibi ravilərin arada kəsintisi olmayan bir isnadla

---

* BDU-nin müəllimi

[1] Ayid, Əhməd və elmi heyət, *əl Mucəmu'l-Arabiyyu's-Əsasi*, Alecso, Larus Nəşriyyatı, 1989, s. 721, 722; Luvis b. Nicola əl-Maluf əl-Yəsuri Maluf, *əl-Müncid fi'l-Lüğati və'l-A'lam*, Beyrut, Daru'l-Məşriq, 1994, s. 416.

biribirilərindən rəvayət etdikləri şaz (zəiflik) və illətli (qüsur) olmaqdan uzaq olan hədis kimi tərif edilmişdir.[2]

Bu tərifə görə bir hədisin səhih ola bilməsi üçün ravilərin ədalət və zabt xüsusiyyətlərinə malik olmaları, son ravisindən Həzrəti Peyğəmbərə (ə) qədər bütün raviləri arasındakı isnad zəncirinin kəsiksiz olması, bir də illət deyilən hər hansı bir gizli qüsuru daşımaması lazımdır.

Qısa bir şəkildə ifadə edəcək olsaq, səhih hədis haqqında söylənən bütün fikirləri aşağıdakı şəkildə tərif etmək olar: Səhih hədis: "Şaz və mualləl (illətli) olmayaraq, isnadı Rəsulüllaha (ə) və ya səhabədən, yaxud da daha sonrakılardan birinə çatıncaya qədər ədalət və zabt sahibi kimsələrin , yenə özləri kimi ədalət və zabt sahibi kəslərdən muttasıl (qopuqsuz) bir sənədlə rəvayət etdikləri hədisdir.[3]

Ancaq burada bir məsələni açıqlamaq zəruridir. Hədisin sənədinin etibarlı (siqa)[4] ravilərdən meydana gəlməsi və Rəsulüllaha (ə) aidiyyətinin doğruluğu (səhihliyi) mövzusunda heç bir şübhə olmamasına baxmayaraq, bu, hədisin sözlərinin Həzrət Peyğəmbərin (ə) mübarək ağzından çıxan kəlimələrin eynisi olduğu mənasına gəlməz. Bu sözlər onun söylədiklərinə olduqca yaxın kəlimələr ola bilər.[5] Yuxarıdakı tərif isə, o hədisin Rəsulüllaha (ə) aid olmasında, daha doğrusu, sənəd zəncirindəki adamların doğru sözlü olduğunda şübhə ediləcək bir yönün olmadığını ifadə etməkdədir. Belə etibarlı və güvənilən insanlardan meydana gələn bir topluluğun verdiyi xəbər də əlbəttəki doğru olaraq qəbul edilməlidir.

Ravilərin ədalət və zəbt sifətləri fərqlidir. Onların bəzisi, digərlərindən ədaləti təmin edən xüsuslar, hafizə gücü və əzbərləmə qabiliyyəti cəhətindən üstündürlər. Ravilər belə dərəcələrə ayrıldığına görə, onların rəvayət etdikləri səhih hədislərin də sihhət baxımından bir-birlərindən fərqli olacağı təbiidir.

---

[2] Uğur, Mücteba, *Ansiklopedik Hadis Terimleri Sözlüğü*, Ankara, TDV Yayınları, 1992, s. 341.

[3] es-Salih, Sübhi *Hadis İlimleri ve Hadis Istılahları*, Ankara, Elif Matbaacılık, 1971, s. 115; əs-Sibai Mustafa, *əs-Sunnətu və məkənətuhə fit təşriil İsləmi*, Beyrut, əl-Məktəbətul İsləmi, 1985, s, 94; İbnus Salah Əbu Amr Osman İbn Abdurrahman əş-Şəhrəzuri, *Ulumul Hadis*, Dəməşq, Darul Fikr, 1986, s. 11.

[4] Siqa- Hədis terminologiyasında, ədalət və zəbt yönündən qüsursuz olan hədis raviləri haqqında istifadə olunan termin.

[5] Çakan, İsmail., L., *Anahatlarıyla Hadis*, İstanbul, Ensar Neşriyat, 2002, s. 30.

Səhih hədislərin ən üstünü mütəvatir olan rəvayətlərdir. Başqa hədis kitablarında çox miqdarda səhih hədislərin var olması ilə bərabər ən etibarlı hədislər, Buxari (ö: H. 250 / M. 870) və Müslimin (ö: H. 261 / M. 875) *əl-Camiu"s-Sahihlərində* yer almaqdadır.[6]

B. Qisimləri

Səhih hədis iki qismə ayrılmaqdadır: Səhih li zatihi və Səhih li ğayrihi.

Səhih hədis əgər yuxarıdaki tərifin səhhət (doğruluq) şərtlərinin tamamını ən yüksək səviyyədə özündə birləşdirməkdədirsə, ona "səhih li zatihi" deyilir. Mütləq mənada səhih deyilincə də, bu "səhih li zatihidir". Sihhət (doğru, etibarlı) şərtlərini ən yüksək səviyyədə daşımamasına baxmayaraq, onu sihhət dərəcəsinə çıxaracaq başqa bir rəvayəti olan hədislərə də "səhih li ğayrihi" və ya "səhih la li zatihi" deyilir. Bu da *həsən* (doğru, yaxşı) hədisin səhih dərəcəsinə çıxarılması mənasındadır. Burada bunu da bildirmək lazımdır ki, hədisçi və hədisçi sayılan fiqhçilər , səhih hədisin *hüccət* və onunla əməl etmənin də vacib olduğu üzərində ittifaq etmişdirlər.[7]

Səhih hədisin məşhur olan bu iki qismiylə bərabər, çox bilinməyən səhih-ğarib növü də vardır. Haqqında hər iki termini istifadə etdiyimiz bu növ hədis, səhhət və ğərabət[8] xüsusiyyətlərini özündə birləşdirməkdədir. İslam alimləri bu hədisi aşağıdakı şəkildə tərif etmişdirlər: Hədis bəzi hallarda, ancaq bir ravi tərəfindən rəvayət olunur. Əgər tək ravidən rəvayət edilməsinə baxmayaraq, o hədis səhihdirsə, ona *səhih-ğarib* deyilir. Bir başqa deyişlə isnadı (ravi zənciri) ğarib olmaqla bərabər, hədisə səhih deyilmişdir və bu hədisin ğarib rəvayətlə (isnadla) səhih olduğu sabitdir.[9] Ğarib hədislərin əksəriyyəti hökm yönündən səhih olmamaqla bərabər, ğarabət sihhətə mane deyildir. Çünki hədisin sihhəti, ravisinin rəvayətdə tək qalmasından çox, onun siqa oluşuna bağlıdır.

---

[6] Kandemir, Yaşar, "Hadis", DİA, İstanbul, 1997, XV, s. 37.

[7] Çakan, İsmail., L., *Hadis Usulu*, İstanbul, İFAV Yayınları, 2005, s. 123, 125.

[8] Ğarib- Hansı ravi təbəqəsindən olursa olsun, bir ravinin tək başına rəvayət etdiyi hədis. Sadəcə bir ravi tərəfindən rəvayət edilən hədis, bir bənzəri başqa ravilər tərəfindən rəvayət edilmədiyi, yaxud da digər rəvayətlər ona tərs olduğu üçün tək qalan mənasına gəldiyi üçün *ğarib* adını almışdır.

[9] Uğur, Mücteba, a. k. ə., s. 342.

1. Səhih hədisin dərəcələri.

Səhih hədislər yeddi dərəcəyə ayrılmaqdadır.

a. Buxari və Müslimin kitablarına aldıqları hədislər. Bu növ hədislərə “muttəfəqun aleyh” deyilir. Bu hədislərin sayısı 1906-dır.

b. Ancaq Buxarinin rəvayət etdiyi hədislər.

c. Ancaq Müslimin rəvayət etdiyi hədislər.

d. Əsərlərində olmasa belə, Buxari və Müslimin şərtlərinə uyğun olan hədislər.

e. Yalnız Buxarinin şərtlərinə uyğun olan hədislər.

f. Ancaq Müslimin şərtlərinə uyğun olan hədislər.

g. Buxari və Müslimin xaricindəki hədis mütəxəssislərinin “səhih” dedikləri hədislər.[10]

2. Səhih Hədisin Şərtləri

Bir hədisin səhih ola bilməsi üçün, aşağıda qeyd edəcəyimiz əsas beş şərtin, onda olması labüddür. Bu şərtlərdən hər hansı biri olmazsa, hədis səhih olma vəsfini itirər.

Səhihin tərifində yer alan bu beş şərt bunlardır:

a. Səhih Hədisin Raviləri Adil olmalıdırlar.

Adil, ədalət vəsfinə sahib olan şəxsdir. Ədalət isə, insanı təqva və mürüvvət sahibi edən bir xüsusiyyətdir. İnsanın şirk, fisk və bidət kimi hər cür böyük və kiçik günahlardan qorunması, ancaq bu xüsusiyyət sayəsində mümkündür. Bu səbəbdəndir ki, təqva və mürüvvət sahibi şəxslərə, hədis istilahında *adil* deyilir.

Hədis rəvayətində, ravilərdə ədalətin şərt olaraq qəbul edilməsi, adil olmadıqları bilinən, yaxud vəziyyəti bilinməyən və buna görədə adil olub olmadıqları məlum olmayan hədisləri səhihin xaricində qoymaq üçündür.

b. Səhih Hədisin Raviləri Zabıt olmalıdırlar.

Zabt, ravinin rəvayət etdiyi hədisdə, yaxud hədisi yazıbdırsa kitabında, çox səhv etməyəcək dərəcədə hafiz (əzbər qabiliyyəti), diqqətli və dəqiq olmasını təmin edən bir xüsusiyyətdir. Ravilərdə zabtın şərt olaraq tələb

[10] Çakan, İsmail., L., *Hadis Usulu*, s. 125-126.

olunması, səhvi çox, qəfləti (diqqətsizlik) ifrat dərəcədə olan şəxslərin hədislərini səhih anlayışının xaricində qoymaq üçündür.

c. Səhih Hədisin İsnadı Muttasıl olmalıdır.

İttisal, isnadda yer alan hər bir ravinin, hədisi nəql etdiyi şeyxi ilə (müəllim) bilavasitə görüşməsi və hədisi şəxsən ondan alması mənasına gəlməkdədir. Beləliklə ravi ilə şeyxi arasında açıq və ya gizli bir inqitanın (qopuqluq) olması mümkün deyildir. İsnadda ittisalın şərt olması, munqatı, mudal, mürsəl və müdəlləs kimi müxtəlif qopuqluqlarla gələn hədisləri səhih xaricində buraxmaq üçündür.

d. Səhih Hədis Şaz olmamalıdır.

Şaz, raviləri ədalət və zabt yönündən etibarlı, muttasıl isnadla gəlmiş olan, fəqət daha quvvətli isnadla gələn eyni hədisin digər rəvayətinə və ya rəvayətlərinə müxalif olmaqla infirad (tək qalan) edən hədisdir. Daha qısa bir ifadə ilə, etibarlı bir ravinin, ondan daha etibarlı bir raviyə müxalif rəvayətidir ki, bu rəvayəti ilə ravi tək qalmışdır. Belə hallarda, daha etibarlı olan ravinin rəvayəti üstün tutulur. Digər rəvayət isə səhih olma vəsfini itirər.

e. Səhih Hədis Mualləl olmamalıdır.

Mualləl, hədisin mətn və ya isnadında illəti (qüsur) olan hədisdir. İllət isə, hədisi zəifdədən bir qüsurdur. Bu qüsur ortaya çıxarılıncaya qədər səhih olduğu sanılan hədis, qüsurun bilinməsindən sonra səhih olma vəsfini itirər.[11]

Hədisçilərə görə, bu beş şərti özündə birləşdirən hədisin səhih olduğunda heç bir şübhə yoxdur.

Hər kəsin üzərində ittifaq etdiyi bu beş şərtdən başqa, səhih hədis haqqında "muxtələfun fih" (ixtilaflı) bir neçə şərt də vardır. Bunlar aşağıdakı kimidir:

---

[11] ez-Zebidi, Zeynuddin Ahmed b. Ahmed, (mütercim: Ahmed Naim Babanzade), *Sahih-i Buhari Muhtasarı ve Tecridi Sarih tercemesi*, Ankara, Gaye Matbaacılık, 1987, I. c., s. 202-203; Koçyiğit Talat, *Hadis Terimleri Sözlüğü*, Ankara, Rehber Yayıncılık, 1992, s. 414.

1. Hakim ən-Nisaburiyə (ö: H. 852 / 1449) görə, səhih hədisin ravisi Hədis elminə bağlılığı ilə məşhur olmalıdır. Bundan məqsədi həmin ravinin, heç olmasa bir ravini cəhalətdən (bilinməməkdən) qurtaracaq dərəcədə məşhur olmayıb, ondan daha yüksək dərəcədə tanınmasına işarətdir. İbni Hacər əl-Askalaninin (ö: H. 405 / M. 1014) dediyinə görə Buxari və Müslim rəvayət etdikləri hədislərin ravilərində bu şərti axtarmışdırlar.[12]

2. Böyük rical (ravi) alimi olan Səmaniyə görə, bir hədisin səhih ola bilməsi üçün, onun yalnız siqatdan rəvayət edilməsi kifayət deyildir. Ravi eyni zamanda gülcü analiz qabiliyyətinə və yüksək əxlaqa sahib olmalıdır. Bununla bərabər çox sayıda hədis eşitməli və hədis alimlərinin hədis haqqındaki müzakirə məclislərinə iştirak etməidir.[13]

3. Bəzi mühəddislər (hədis alimləri) hədisi –sözləri ilə deyil- mənasıyla rəvayət edən ravilər haqqında, onların hədisləri mənası (məanil hədis) ilə bilmə şərti qoymuşdurlar. Bu şərtin zəruriliyinə heç kəsin etirazı yoxdur. Ancaq bu şərt zabt sifətinin içində yer aldığı üçün, çox vaxt ayrıca olaraq ələ alınmamışdır.[14]

4. Hənəfi məzhəbinin qurucusu olan İmam Əzəm Əbu Hənifəyə (ö: H. 150 / M. 767) görə hədisin səhihliyi üçün, onun ravisinin fəqih olması şərtdir. Əbu Hənifənin bu fikri, İslam elm aləmində belə bir şərtin gərəkliliyindən bəhs olunması yönündən, diqqətə layiqdir.[15]

5. Buxari hər ravinin hədisi şeyxindən bilavasitə səma (eşitmə) yolu ilə almasını şərt kimi qəbul edir. Bununla o, ravi ilə müəlliminin elmi münasibətdə omaqlarının kifayət olmadığını , eyni zamanda onların bilavasitə uzun müddət görüşmələrini də tələb etmişdir.[16]

6. Bəzi alimlər: *“Bir hədisin səhih ola bilməsi üçün, ravisinin o hədisi rəvayət etdikdən sonra, onun hökmünün əksinə hərəkət etməməsinin şərt olduğunu.”* demişdirlər. Ancaq buna ehtiyac yoxdur. Çünki ravinin öz rəvayətindən sonra, rəvayət etdiyi hədisin məzmunu ilə əməl etməməsi, *iləli qadhdan* (etibarsız, ağır qüsuru olan rəvayət) biridir.

---

[12] ez-Zebidi, a. k. ə., I. c, s. 203.
[13] ez-Zebidi, a. k. ə., I. c, s. 204.
[14] ez-Zebidi, a. k. ə., I. c, s. 204.
[15] ez-Zebidi, a. k. ə., I. c, s. 204; Kırbaşoğlu, M. Hayri, *İslam Düşüncesinde Hadis Metodolojisi*, Ankara, Ankara Okulu Yayınları, 2000, s. 110.
[16] ez-Zebidi, a. k. ə., I. c, s. 204.

7. Bəzi alimlər də, hədisin isnadında yuxarıdakı şərtlərin olmamasına baxmayaraq, onun mətninin alimlər nəznindəki məqbuliyyətini yetərli hesab etmişdirlər.

8. Sayıları az olan bəzi alimlər (mötəzilə məzhəbinin mənsubları), adl və zabt sahibi olan ravilərin, rəvayətlərində tək qalmamalarını (münfərid) səhih hədisdə şərt olaraq qəbul etmişdirlər.

Son olaraq bir mövzuya da toxunmaq vacibdir. Səhih bir hədisdə olması gərəkli olan şərtlər məsələsində klassik dövr hədis anlayışındakı şərtlərlə kifayətlənməyən və ya bu mövzuda fərqli düşünən alimlərin başında İmam Əbu Hənifə gəlməkdədir. Onun bir hədisin səhih ola bilməsi üçün qoşduğu şərtlərə baxıldığında hədisçilərdən[17] -və onların səhih hədis anlayışından- nə qədər fərqli düşündüyü nəzərə çarpmaqdadır. Qısaca olaraq ələ alsaq bu şərtlər əsasən aşağıdakı kimidir:

1. Əgər xəbər-i vahid[18] şəriətin qaynaqlarından əldə edilmiş üsullara müxalifdirsə, o zaman, müxalif olan xəbəri *şaz* qəbul edərək, daha quvvətli dəlili alardı.

2. Xəbər-i vahid, əgər Quranın ümumi və zahiri mənalarına ziddirsə, Qurana uyğun olanı alaraq, müxalif xəbəri rədd edərdi.

3. Xəbər-i vahid, *qavli* (sözlü) və ya *feli* (hərəkətlərə aid) məşhur bir sünnətə müxalif olarsa, onunla əməl etməzdi.

4. Xəbər-i vahidin özü kimi dəyərə sahib olan bir başqa rəvayətə zidd olması halında, ravinin fəqih olması kimi ünsürləri göz önündə tutaraq seçimini edərdi.

5. Ravinin, rəvayət etdiyi xəbərə zidd davranması halında o rəvayəti tərk edərdi.

6. Səhabə arasında ixtilaflı olan bir hökmlə əlaqəli olan hədisi, ixtilaf edənlərdən birinin dəlil almayaraq tərk etməsi halında, o da tərk edərdi.

7. Sələfdən birinin, bir mövzudaki xəbər-i vahidə etiraz etməsi halında, həmin rəvayəti tərk edərdi.

---

[17] İmam Əbu Hənifə daha çox fiqh alimi kimi tanınmaqdadır.

[18] Xəbər-i vahid- ümumiyyətlə mütəvatir dərəcəsinə yüksəlməyən xəbərlərə (hədislərə) deyilir. Buna görə, bir ravi təbəqəsində tək bir ravi tərəfindən rəvayət edilən xəbərə xəbər-i vahid adı verilir. Bir neçə təbəqədə olan, tək ravi tərəfindən rəvayət edilmiş xəbərlərə *xəbər-i ahad* və ya qısaca olaraq *ahad* deyilmişdir.

8. Ravinin xəbəri eşitdiyi andan etibarən rəvayət etdiyi ana qədər heç dəyişdirmədən hafizəsində tutmasını şərt qoşardı.

9. Ravinin rəvayət etdiyi xəbəri xatırlamadığı təqdirdə yazıya güvənməsini yetərli görməzdi.

10. İxtilaflı bir məsələdə iki tərəfdən hansı üçün xəbər çoxdursa onu seçərdi.

11. Xəbərin, hansı ölkə olursa olsun, səhabə və tabiun arasında təvatürən tətbiq edilən əmələ müxalif olmamasına diqqət edərdi.

12. Ravisi fəqih olmayan xəbər-i vahidi tərk edərdi.

13. Acıq qiyasa (qiyas-ı cəli) müxalif olan rəvayəti almazdı.

14. Qiyasın təyid etdiyi sabit bir hədisə zidd olan xəbərlə əməl etməzdi.[19]

## NƏTİCƏ

Məlumdur ki, Sovetlərin işğalından sonra İlahiyyat elmləri Azərbaycanda tənəzzülə uğramışdır. Xüsusi ilə də bu elmlərin başında gələn Hədis elmi sahəsində heç bir iş görülməmiş, bu haqda yazılanlar materialist fəlsəfə anlayışı xaricinə çıxa bilməmişdir. Ensiklopediyalar və digər elmi əsərlərdə verilən hədisçi adları fəlsəfəçi, mütəfəkkir kimi göstərilmiş, onların dini sahədə alim olduqları haqqında bir şey söylənməmişdir.

Dediklərimizlə bərabər dini terminologiya və bunun içində yer alan hədis terminologiyası haqqında da tutarlı bir söz deyilməmiş, bunlar haqqında elmi araşdırmalar "yoxdur" deyiləcək qədər az olmuşdur.

Məqaladəki əsas mövzu, Hədis elmindəki "səhih" termini, onun qisimləri, şərtləri və xüsusiyyətləri barədə ətraflı məlumat vermək, bəzi İslam alimlərinin bu haqdaki fikirlərini oxucuya çatdırmaqdır.

Bu məqaləni yazmağımızda əsas məqsədimiz hədis terminologiyasının Azərbaycan elm dünyasına qazandırılmasında bir addım da olsa məsafə qət etmək, bu sahədə yeni araşdırmalara təkan verməkdir.

[19] Ünal İ. Haqqı, *İmam-ı Azam Ebu Hanifenin Hadis Anlayışı ve Hanefi Mezhebinin Hadis Metodu*, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara, 1994, s. 172.

**РЕЗЮМЕ**

Известно, что после оккупации Азербайджана Советскими властями, теологические науки подверглись деградации. В эту эпоху не проводились научные работы по этим профилям, это особенно чувствуется в области науки Хадис. В энциклопедических и других научных трудах, приводятся имена ученых в отрасли науки Хадис, но речь о них идет, не как об ученых-теологах, а как о философах и мыслителях.

Одновременно не имеются научные данные о религиозной терминологии и о термнологии науки Хадис в частности. Научных исследований об этих науках, почти нет.

В этой статье вы сможете найти достаточную информацию о термине «сахих» в науке Хадис, о её категориях, особенностях и о мнениях некотоных Исламских ученых об этом.

Мы думаем, что эта статья будет маленьким толчком, для новых научных трудов в области терминологии Хадиса и воодушевит ученых-теологов Азербайджана для их проведения.

## BİBLİOQRAFİYA

AYİD Əhməd və elmi heyət, *əl Mucəmu'l-Arabiyyu's-Əsasi*, Alecso, Larus Nəşriyyatı, 1989.

ÇAKAN, İsmail., L, *Hadis Usulu*, İstanbul, İFAV Yayınları, 2005.

- - - - -, *Anahatlarıyla Hadis*, İstanbul, Ensar Neşriyat, 2002.

İBNUS SALAH, Əbu Amr Osman İbn Abdurrahman əş-Şəhrəzuri, *Ulumul Hadis*, Dəməşq, Darul Fikr, 1986.

KANDEMİR, Yaşar, "Hadis", DİA, İstanbul, 1997, XV.

KIRBAŞOĞLU, M. Hayri, *İslam Düşüncesinde Hadis Metodolojisi*, Ankara, Ankara Okulu Yayınları, 2000.

KOÇYİĞİT, Talat, *Hadis Terimleri Sözlüğü*, Ankara, Rehber Yayıncılık, 1992.

LUVİS b. Nicola əl-Maluf əl-Yəsuri Maluf, *əl-Müncid fi'l-Lüğati və'l-A'lam*, Beyrut, Daru'l-Məşriq, 1994.

ƏS-SALİH, Sübhi, *Hadis İlimleri ve Hadis Istılahları*, Ankara, Elif Matbaacılık, 1971.

ƏS-SİBAİ, Mustafa, *əs-Sunnətu və məkənətuhə fit təşriil İsləmi*, Beyrut, əl-Məktəbətul İsləmi, 1985.

UĞUR, Mücteba, *Ansiklopedik Hadis Terimleri Sözlüğü*, Ankara, TDV Yayınları, 1992.

ÜNAL, İ. Haqqı, *İmam-ı Azam Ebu Hanifenin Hadis Anlayışı ve Hanefi Mezhebinin Hadis Metodu*, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara, 1994.

EZ-ZEBİDİ, Zeynuddin Ahmed b. Ahmed, (mütercim: Ahmed Naim Babanzade), *Sahih-i Buhari Muhtasarı ve Tecridi Sarih tercemesi*, Ankara, Gaye Matbaacılık, 1987, I. c.